**LAMİYƏ XANLAROVA**
**Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası**
**Ələsgər Qayıbov 6**
**lamiya.khanlarova@mail.ru**

# ÜMUMTÜRK PUBLİSİSTIKASINDA MUSTAFA KAMAL ATATÜRK ZİRVƏSİ

**Xülasə**

Tük dünyasının öndəri Mustafa Kamal Atatürk XX əsrin və mən deyərdim ki, gələcək bütün əsirlərin dünya miqyaslı ən nadir şəxsiyyətlərindəndir. Cümhuriyyət dövründən etibarən Atatürkün fəaliyyəti nə qədər türk ədəbiyyatında, xüsusi olaraq ədəbiyyatın fəal qolu olan poeziyada poetik ifadəsin tapdığı kimi publisistikada da bir Mustafa Kamal Atatürk zirvəsi yaranmağa başladı. Çap olan məqalələrdə şeirdən fərqli olaraq Türkiyə cümhuriyyətinin əsasını qoyan Atatürkün fəliyyəti, istər Ankarada, Karsda, Ərzurumda, Samsunda, Amasyada apardığı işlərin əhəmiyyəti də vurğulanırdı. Təbii ki, publisistika digər janırlardan fərqlənirdi. Daha aktiv janr olan publisistikada Atatürkün fəliyyətini, qazandığı nailiyyətləri yalnız Türkiyədə deyil dünyaya yayırdı. Azərbaycanda da zamanından asılı olmayaraq bir Atatürk zirvəsi, Atatürk ucalığı var. Atatürk haqqında Azərbaycanda Ulu Öndər Heydər Əliyev hər zaman Atatürk ideyalarından böyük fəxarətlə bəhrələnirdi. Heydər Əliyev hər zaman deyərdi ki, "Atatürkün yaratdığı Türkiyə sadəcə sizin üçün deyil, bütün türk dünyası və xüsusi ilə Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir". Azərbaycanda Atatürk mərkəzinin qurulması, Atatürk ideyalarından bəhs edən məqalə və əsərlərin çap olması Atatürk ucalığından bəhs edilməsi böyük əhəmiyyət kəsb edir. Aynurə Paşayevanın "Rafik Zəka Xəndan publisistikasında Türkiyə mövzusu" adlı məqaləsində Rafik Zəkanın uca Atatürk sevgisi ilə bərabər Atatürk fəliyyəti də əks olunur. 1998–ci ildə Rafik Zəkanın "Atatürkiyə" adlı kitabı çap oldu. Kitabda Atatürk şəxsiyyəti Türkiyə respublikasının uluslararası laureatı, prof.R.Z.Xəndanın yaddaşında adi bir dövlət qurucusu deyil, bütün türklərin atası adına laiq olan bir dahi kimi canlanır. Müəllif Türkiyəni Atatürk ismindən ayrı təsvir edə bilmir. 1923-cü ildə Atatürk Türkiyəni xaricilərdən xilas edib yenidən nəfəs verməsi bu əsərin əsas ideyasını təşkil edir. Elə buna görə də Xəndan Türkiyəyə səyahətnaməsini Atatürkiyə adlandırmışdır.

Açar sözlər: Atatürk, publisistika, ideya, sevgi, poeziya, cümhuriyyət

## Giriş

Publisistika ədəbiyyatın ən öndə gedən fəal janrıdır. Bir hadisəyə münasibət bildirərkən nəzmdən, nəsrdən fərqli olaraq publisistika öz sözünü boyasız, bədii təxəyyülsüz real şəkildə əks etdirir. Bu janr hər zaman müharibələrdə, faciələr zamanı daha fəal şəkildə münasibət bildirir. Bu baxımdan Mustafa Kamal Atatürkün fəliyyəti, ideyaları, hürrüyyət arzuları, bir cümhuriyyət qurucusu kimi gördüyü işlər ümumtürk publisistikasında mükəmməl şəkildə əksin tapmışdır. Xüsusilə Utkan Qocatürk, Rəfik Zəka Xəndanın, Heydər Əliyevin Atatürk haqqında məruzə və fikirləri, "Atatürkün xatirələri və Atatürk haqqında xatirələr" bu kitaba daxil edilmiş Atatürk haqqında məqalələri xüsusi olaraq qeyd etmək istərdim. Damar Arikoğlu, Dr.Tofiq Rüşdü Aras, Şükrü Qaya, Həsən Rəşid Tanqut, Əhməd Cavad Əmrə və onlarca publisistin Atatürk xatirələri maraq doğurur. Azərbaycanda Qənirə Paşayevanın "Dünyanın itirdiyi böyük

adam" və onlarca publisistik əsərlərlə bərabər hətta Atatürk haqqında şeirlər də yazılmışdır ki, bu şeirlərdə də ulu Atatürkün fəliyyəti bir az da publisistik deyimdə əks edilib,

Bu publisistik əsərlərdə Atatürkə verilən qiymət və böyük məhəbbətdən söhbət açılır. Təbii ki, ilk nümunəni Ulu öndərimiz Heydər Əliyevdən gətirəcək və Heydər Əliyevin Atatürkə verdiyi dəyərdən bəhs edəcəm. "Atatürk fenomeni" başlıqlı yazıda Heydər Əlirza oğlu Əliyev yazır: " Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhurriyyətinin nəyinki əsasını, təməlini qoydu, həmdə onu qurdu, onun bütün təsisatlarını yaratdı., böyük dövlət etdi, bugünkü nəslə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu.(1, 14) Onu da qeyd edim ki, adı çəkilən kitabın tərtibçisi və ön sözün müəllifi Xanım Məmmədovadır və kitaba ön sözündə bir çox məqamlara aydınlıq gətirir. Tərtibçinin də Atatürk haqqında fikirləri maraq doğurur.Böyük Atatürkün fəaliyyətlərindən, onun haqqında xatirələri Azərbaycan türkcəsinə çevirən müəllif yazır:

"Biz Azərbaycanlılar türk dünyasının iftixarı, qüruru olan Atatürkü ürəkdolusu bir məhəbbətlə sevir və onun böyük əməlləri ilə həmişə fəxr edirik Bizim tarixçilərimiz, böyük şəxsiyyətlərimiz də daim ona üz tutur, yeri gələndə onun qiymətli fikirlərinə istinad edir, Onun şərəfli həyat yolunu özləri üçün bir nümunə hesab edirlər. Bu bir həqiqətdir ki, hər bir türk üçün Atatürk sevgisi sonsuz və əbədidir. Böyük Atatürkün Türk millətinə verdiyi ən yüksək dəyər onun bu qiymətli sözlərində çox düzgün və doğru ifadəsini tapmış və o gündən bu günə kimi hər bir türk bu sözləri təkrar edir və nə qədər Türk xalqı Türk Dövləti, Türk Dünyası var, hər zaman da bu sözlər xüsusi qürur hissiləsəslənəcəkdir: "Nə mutlu Türküm deyenə" (2, 5)

Kitabda Əli Qılıncın xatirələri də maraqlıdır. Əli Qılınc Atatürkün hamıdan seçilməsini izah edərkən gözəl müşahidə etdiyi faktlara əsaslanır. Xatirə müəllifi əsgər olaraq iştirak etdiyi Canaqqala savaşında yaralanmış və düşmənlə Qafqaz cəbhəsində də döyüş-müşdür. Milli mücadilədə iştirak etmək üçün ordudan istefa edib Sivas Konfransı keçirilən vaxtlarda Mustafa Kamal Paşanın yanına getmiş, onunla həm tanış olmuş, həm də Fransız işğalı altında olan Maraş və Qazantəp ətrafında bu işğalçı qüvvələrə qarşı lazım olan dəstəni qurması əmir almışdır. Qılınc savaşdan sonrakı vaxtlarda da Atatürklə yaxın olmuşdur ki, məhz buna görə də Atatürk haqqında gözəl xatirələri olub. Qılınc 1930-cu ildə Ankarada toplanan Birinci Türk Tarix Konfransının axırında Mərmərə köşkündə müəllimlərə verilən çay süfrəsində din və xilafət mövzularında bir müəllimin sualına Atatürkün verdiyi cavabı belə xatırlayır.

"- Paşam din lazımlı bir şeydimi? Xilafətin aradan götürülməsi yaxçımı olmuşdur?

Atatürk bu suala çox yumşaq bir şəkildə cavab vermişdi:

- Bəli, din lazımlı bir qurumdur. Dinsiz ölkələrin davamlılığına imkan yoxdur. Yalnız bir məsələ vardır ki, din tanrı illə qul arasındakı bir bağlılıqdır. Mürtəce dindarların havadarlığına imkan verilməməlidir. Dindən maddii gəlir əldə edənlər iyrənc məxluqlardır. Bax, biz belə bir vəziyyətə qarşı çıxırıq və onların bu sahədəki süni canfəşanlığına icazə vermirik. Bu gün din ticarəti, din alveri edən insanlar saf və məsum xalqımızı aldatmışlar.. Bizim və sizin əsil mücadilə etdiyimiz və edəcəyimiz bir tip şəxslərdir və onların törətdikləri əməllərdir"(3, 12)

Məqalədə yalnız Atatürkün dinlə bağlı deyil Laiqliklik haqqında da fikirləri vardır. Qılıncın publisistik yazısında Atatürkün daxili aləminin zəngilikləri, özündən böyüklərlə və eyni zamanda özündən kiçiklərlə rəftarı da belə üzə çıxır.

Məqalədə Hatay problemlərinə də yer verilmişdir.

Kitaba daxil edilmiş SalihBozokun xatirəsi də marq doğurur. Onun xatirəsindən məlum olur ki, Atatürkü şəxsən tanımayanlar onu uzun saqqallı, nurlu üzlü mir peyğəmbər kimi təqdim edərlərmiş. Hətta bir dəfə onu görməyən bir kəndli Ataürkü belə təsvir edir. Bu zaman kəndli Salihə Atatürkün görünüşünün peyğənbər üzlü , Saqqalının göbəyinə qədər düşməsini qeyd edəndə bunu eşidən Atatürk heç nə demədən qulaq asmış , sonra Saləhə ,

dəymə , qoy onun da xəyalları yıxılmasın, məni belə tanısın deyərək gülməsi , onun bir azda qəlbinin də kövrək olmasının, heç bir kəsin qəlbinə dəyə bilməməsini də bizlərə bildirir. Yeri gəlmişkən Məqalənin əvvəlində UtkanQocatürkün də “Atatürk “ kitabının adını çəkdik . Bu kitab 1991 – ci ildə Azərbaycan dilinə, Dünyamalı Vəliyev tərəfindən tərcümə edilmişdir. Kitabda Atatürkün fəliyyəti ilə bağlı faktlar, onun qiymətli fikirləri də çap edilmişdir. Kitabın ilk səhifəsində Atatürkün İstiqlaliyyət haqqında ölməz ideyasının verilməsi demək olar ki, dəyərini daha da artırmışdır.

“Azadlıq və istiqlqliyyət mənim xarakterimdədir Mən millətimin və böyük əcdadımın ən qiymətli mirası olan istiqlaliyyət eçqi ilə yaranmış bir adamam.

Uşaqlığımdan bu günə qədər ailəvi, şəxsi və rəsmi həyatımın hər səhifəsini yaxından tanıyanlar bu eşqi görüblər. Məncə , bir millətlərdə, şərəfin heysiyyətin, namusun və insanlığın olması və yaşaması, mütləq o millətin azadlığ və istiqlaliyyətə malik olmasından asılıdır. Mən şəxsən bu saydığım keyfiyyətlərə çox əhəmiyyət verirəm və bu keyfiyyətlərin özüdə varlığını iddia edə bilmək üçün millətimin həmin keyfiyyətlərə malik olmasını şərt və əsas hesab edirəm.. Mən yaşaya bilmək üçün mütləq müstəqil bir millətin övladı olmalıyam”(4,17) Atatürkə həsr edilən bütün ədəbiyyat nümunələri mən deyərdim ki, bu ideya üzərindən yola çıxaraq yazılmışdır. UtkanQocatürkün bu kitabında Atatürkün düşüncə sistemi, Aatürkçü düşüncə sisteminin xüsusiyyətləri, Atatürk prinsip və inqilabları, istiqlaliyyət duyğuları , onun dəyərli fikirləri açıklanır. Kitab Atatürk haqqında bir xəzinədir. Və bu kitabı oxuyan hər kəs böyük Atatürkü görüb , tanımış kimi hiss edir. Müllif çox haqlı olaraq Atatürk böyüklüyün bir də onun ağıllı , elimli və gerçəkçi olmasında görür. Və Atatürkün bütün qalibiyyətində , savaşlarındakı uğurda elmiliyin, ağıllığın və gerçəkliliyin dayandığı vurğulanır. Atatürkə görə “Ağıl və məntiqin həll edə bilməyəcəyi bir məsələ yoxdur” Müdrük bir ifadədir. Və onu da qeyd etmək yerinə düşər ki, onun ideyaları , fikirləri gözəl aforizmlərdir. Elə kitabın 3 –cühissəsin də də bu məsələlərə yer ayrılmışdır. Xüsusilə Azadlıq haqqında fikirlərindən birini xatırlatmaq bu gün çox yerinə düşərdi.

“Azadlıq insanın düşündüyü və istədiyini mütləq edə bilməsidir Bu tərif azadlıq sözünün ən geniş mənasıdır. İnsanlar bu mənada azadlığa heç vədə nail olmamışlar və ola bilməzlər. Cünkü məlumdur ki, insanı təbiət yaratmışdır. Təbiiətin özü belə mütləq mənada azad deyildir; kainatın qanunlarından azad deyildir. Buna görə də insan əvvəlcə təbiətin içində, təbiətin qanunlarından , şərtlərindən, amillərindən , səbəblərindən asılıdır. Məsələn dünyaya gəlmək və gəlməmək insanın öz ixtiyarında olmamışdır və deyildir. İnsan dünyaya gəldikdən sonra da, lap ilk andan , təbiətin və özünün yaratdığı bir çox şeyin əsiridir. Himayə edilməyə, bəslənməyə, baxılmağa , böyüdülməyə möhtacdır.(4,18)

Əsərdə bu kimi Ataürk ideyaları ayrı başlıqlar altında verilmişdir ki, bu da kitabda Atatürkün minlərcə ideyası ilə operativ şəkildə tanış olmağa köməklik edir. Yeri gəlmişkən Azərbaycanda Qənirə Xanım Paşayevanın da uca Atatürk haqqında dəyərli publisistik yazıları çap olub ki, bunlardan biri də “ Dünyanın itirdiyi böyük adam” adlı məqaləsidir. Qənirə xanım məqaləsində Atatürk ideyalarına türk xalqlarının deyil, eyni zamanda ona məğlub olan insanların vurğun olduğunu qeyd edir. Qənirə xanımın Atatürk haqqında bu fikri bir daha Atatürkün düşmənlərinin belə dana bilmədiyinin sübut və dəlilidir.

“1922-ci ildə Türk ordusunun zəfəri nəticəsində, Anaduluda apardığı siyasəti iflasa uğrayan İngiltərənin baş naziri DavidLioyd, ölkəsinin parlamentliyində üzləşdiyi tənqidlərə görün nə cavab verir.” Dostlar yüzillər nadir hallarda dahi yetişdirir. Bu talesizliyimizə baxın ki, o böyük dahi çağımızda türk millətinə nəsib olub.Mustafa Kamalın dahiliyi qarşısında əldən nə gəlirdi ki,.. insan qürur duyur... Atatürk dünyanın bu gün əsas gücləri olan qüvvələrin demək olar ki, hamsı ilə demək olar ki, üz-üzə gəldi. Türkiyə torpaqlarının bütün istiqamətlərində Türk torpaqlarına göz dikənlər, Türkiyəni məhv etmək

istəyənlər, param –parça etmək arzusunda olanlarla Atatürk və silahdaşları savaşdı və bütün dünyaya Türk millətinin gücünü, əzmini, iradəsini, onu yıxmağın mümkünsüzlüyünygğstərdi.”(5,38) Məqalədə Qənirə Paşayeva Atatürkün böyüklüyünü onun ağıllı ideyalarında görür. Savaşmaq elə bir iş deyildir, amma ağıllı ideya ilə savaşmaq , qalibiyyətin açarıdır. Bu məqalədə bizə, oxucuya ötrülən fikirlərdən biri də budur. Daha sonra Qənirə xanım məqalədə o, günüdə xatırladan bir hadisəni xatırladır. 1938-ci ildə həmin o ağrılı gündə bu hadisəni eşidən alman professor bu xəbəri eçidərkən dərsə girib girməyəcəyinə qərar verə bilmədiyi halda unversetin rektoruna yaxınlaşıb nə edəcəyini bilmədiyini söyləyərkən rektor ona sizdə belə böyük dövlət xadimi ölüncə nə edirsinizsə elə də edin , söyləyir. Professor bəlkə də fərqinə varmadan, “ bizdə bu qədər böyük dövlət xadimi ölməyib axı”- deyərək bir daha Atatürkün dünyada əvəzsiz biri olduğunu ifadə etmişdir. Tür dünyasında Atatürk zirvəsindən bəhs edən publisistik yazılar, xatirələr minlərcədir. Bu məqaləyə Uluslararası Atatürk ödülünəlaiq görülmüş Rəfik Zəka Xəndanın Atatürklə bağlı yazılarından bir neçə cümlə yazmaq yerinə düşər. Aynurə Paşayeva “Rəfik Zəka Xəndan publisistikasında Türkiyə mövzusu” məqaləsində çox incə məqamlara toxunmuşdur. Rəfik Zəka türkiyə deyəndə Atatürk , Atatürk deyəndə isə Türkiyə yada düşür. Bu başqa cürə də ola bilməz.Atatürk yaradıcılığını, fəliyyətini bilən hər kəslər bunu elə beləd başa düşür.

“1923 –cü ildə Atatürk Türkiyəni xaricilərdən xilas edib yenidən nəfəs verdiyi üçün Rəfik türkiyə səyahətini belə “ Atatürkiyə”adlandırmışdır.” Bu özü Atatürk zirvəsinin ucalığından xəbər verir. Rəfikin Atatürk sevgisi şeirlərində də əks olunur. Və bu çeirlərdə də Atatürkə olan sevgisi bir az da publisistik ruhla birləşir. O, gələcəyimiz olan uşaqlara da Atatürk zirvəsindən bəhs edir və publisistik ruhla demək istədiyin bəyan edir.

Könül sizə türküsünü açıklar,  
sevginizlə ətirlənir butamız,  
Atanıza ata deyin çocuklar,  
Gecə-gündüz yada düşsün atamız (6,2)

O da son dərəcə maraqlıdır ki, ölkələrin, dövlətlərin və xalqların həyatındakı oxşarlıq onlara başçılıq edənlərin Mustafa Kamalın hərbi xidmətlərinin ilk günlərindən onu gözü götürməyənlər tapıldı. Hərbi məktəbdə və hərbi akademiyada üsyankar bir zabit kimi tanınan Mustafa Kamal xidmətdə olduğu müddətdə təzyiqlər, həbslər, məqsədli sürgünlər gördü. Dövlət və hökumət tərəfindən qiyamçı adlandırıldı. Hərbi məhkəməyə verilməsi tələb edildi. Hətda o ölkənin ilk prezidenti olanda belə yeni Türkiyənin düşmənləri Mustafa Kamalı hörmətdən salmaq üçün onun haqqında müxtəlif şayiələr yaydılar. İkinci dəfə prezident seçilməsin deyə seşkilər haqqında qanuna belə bir maddə salmağa çalışdılar ki, indiki Türkiyənin hüdudlarında yerləşməyən ərazidə anadan olan, beş il müddətinə bir seçki dairəsində yaşamayan hər kəsin deputat seçilmək hüququ əlindən alınsın. Bu da o demək idi ki, yeni Türkiyənin ərazisinə daxil olmayan Salonikidə doğulan və beş il bir yerdə yaşamayan Mustafa Kamal Atatürk Vətən, xalq qarşısında xidmətlərinə baxmayaraq, deputat seçilə bilməzdi. Taleyin işinə bax bir. Bütün bu məhrumiyyətlər Heydər Əliyevin də alın yazısı oldu. Uzun müddət respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləyən, 13 il Azərbaycana rəhbərlik edən, bir müddət ərzində təkcə dövlət quruculuğunda deyil, ölkənin iqtisadi cəhətdən inkişaf etdirilməsində nailiyyətlər qazanan respublikamızın paytaxtı Bakı şəhərində, rayonlarda yeni-yeni sənaye, kənd təsərrüfatı və mədəni-məişət obyektləri tikdirən, incəsənət abidələri və kompleksləri yaradan bir adam Moskvaya, yüksək vəzifəyə irəli çəkiləndən sonra onun da haqqında şaiyələr və böhtanlar yayılmağa, əleyhinə kompaniyalar aparmağa başlandı. O, Sov.İKP MK Siyasi Bürosu

üzvlüyündən istefa verəndən sonra bütün bunlar daha da gücləndirildi. Hətta Moskvada qəsdlərdən, təqiblərdən yaxa qurtarmaq üçün doğma Bakıya qayıtmasına belə imkan verilməsi. İş o yerə çatdı ki, gələcəkdə xalqın Heydər Əliyevi siyasi və iqtisadi girdablar içində boğulan Azərbaycana rəhbər gətirəcəyindən ehtiyatlanan bədxahlar onun prezident seçkilərində iştirakına mane olan yaş senzini konstitusiya tələbinə çevirdilər. Prezident seçiləndən bir az sonra şəxsiyyətinə, fəaliyyətinə qarşı yönəldilən sui-qəsdlə, qiyamlar bütün dünyaya məlumdur. Mustafa Kamal və Heydər Əliyev öz ölkəsinin, Vətəninin, xalqının azadlığı, müstəqilliyi hər cür böhtan və şaiyələri onları nəinki xalqdan ayıra bilməmiş, əksinə xalqa qırılmaz tellərlə bağlamışdır. İndi bütün olanlara, ötüb keçənlərə açıq gözlə baxanda, bütün olmuşları ağılın süzgəcindən keçirəndə Allahın birliyinə şükür edirsən ki, ölkənin, Vətənin və xalqın belə bir agır günündə nə yaxşı ki, Mustafa Kamal Atatürk varmış. Nə yaxşı ki, Heydər Əliyev varmış. Dar günün xilaskarına, bir ölkənin, bir xalqın, bir dünyanın xeyirxahına, sevimlisinə çevrilmək özüdə bir xoşbəxtlikdir.(7.5)

## Ədəbiyyat:


1.Heydər Əliyev, "Atatürk fenomeni", "Atatürkün xatirələri və Atatürk haqqında xatirələr", "Elm" nəşriyyatı, 2006

2.Xanım Məmədova,"Atatürkün xatirələri və Atatürk haqqında xatirələr" kitabına ön sözdən, "Elm ", 2006

3.Əli Qılınc," xatirələr", "Atatürkün xatirələri və Atatürk haqqında xatirələr","Elm", 2006

4.Utukan Qocatürk, "Atatürk", Bakı "Elm",1991

5.Qənirə Paşayeva, "Dünyanın itirdiyi böyük adam", cetinbayramoğlu.vvordpress.com

6.Aynurə Paşayeva, "Rəfik Zəka Xəndan publisistikasında Türkiyə mövzusu", bizimyazı, 06, may

7. Türk dünyasının xilaskarları, Bakı- 2001


**Л.Ханларова**

## Роль Мустафа Кумаль Ататюрка в общуй тюркологической публисистике

## Резюме:


Лидер тюркского мира Мустафа Кемаль Ататюрк один из самых редких личностей мирового масштаба XX века, и даже я бы сказал всех будущих веков. Начиная со времен Республики, деятельность Ататюрка нашла свое поэтическое выражение не только в турецкой литературе, в особенности поэзии, являющейся активным жанром литературы, так же в публицистике началась вершина Мустафы Кемаля Ататюрка. В отличии от стихотворений, в издаваемых статьях особое внимание уделялось деятельности Ататюрка, основоположника Турецкой Республики, значимости его работ, проведенных в Анкаре, Карсе, Эрзуруме, Самсуне, Амасии. Безусловно, публицистика отличалась от других жанров. Публицистика как наиболее активный жанр распространяла деятельность Ататюрка, его достижения не только в Турции, но и во всем мире. В Азербайджане так же независимо от времени существует вершина Ататюрка, авторитет Ататюрка. Великий лидер Азербайджана Гейдар Алиев всегда с почтением пользовался преимуществами идей Ататюрка. Гейдар Алиев всегда говорил: «Турция, созданная Ататюрком, обладает особым значением не только для вас, но и для всего тюркского мира, особенно для Азербайджана». Создание в Азербайджане центра Ататюрк, издание статей и произведений, посвященных идеям Ататюрка, его авторитету, имеет большое значение.

В статье Айнуры Пашаевой «Тема Турции в публицистике Рафика Зеки Хандана» наряду с большой любви Рафика Зеки к Ататюрку, также отражается деятельность Ататюрка. В 1998 г. была напечатана книга Рафика Зеки «Ататюркия». В книге личность Ататюрка воображается в памяти профессора Р.З. Хандана, межнационального лауреата Республики Турции, не только как обычный создатель государства, но и как гения, заслужившего имени отца всех тюрков. Автор не может представлять Турцию без имени Ататюрка. Основную идею этого произведения составляет освобождение в 1923 г. Турции Ататюрком от иностранцев, и вдохновения ею новой жизни. Именно поэтому Хандан назвал свою книгу путешествия в Туркию Ататюркия.

Ключевые слова: Ататурк, публисистика, идея, любовь, поэзия, республика

**L.Khanlarova**

**Mustafa Kemal Ataturk`s summit in the universal Turkish publicism**

**Summary**

The Turkish Leader, Mustafa Kamal (Ataturk), is one of the rare talent leaders and most effective figures of 20th century and, I do believe, even in the future. The formation of Mustafa Kamal (Ataturk) Peak started to emerge since the republic era in poetry, especially in the works of well-known poets, as well as in publicity sector. In spite of poems, the importance of founder of the Republic of Turkey, Mustafa Kamal (Ataturk), has been emphasized in the papers published in newspapers in Ankara, Kars, Arzrum, Samsun and Amasya. It’s evident that the publicity is different from any other journalistic publications. The publicity sector, which is rather more active sector, played a drastic role in introduction of achievements of Ataturk not only in Turkey but also in the else of the world. Notwithstanding the time, there has always been an Ataturk Peak in Azerbaijan. The Great Leader of Azerbaijan, Heydar Aliyev has always mentioned Ataturk’s ideas as a great source of proud. “The Republic of Turkey founded by Ataturk does not limit to Turkey mere, rather it belongs to whole of Turkic world and has a paramount importance to the Republic of Azerbaijan.” Great Leader, Heydar Aliyev said. In a paper written by Aynura Pashayeva under the title of “The Turkey Subject in Rafik Zaka Khandan Publicity” in addition to the huge love of Ataturk in Rafik Zaka’s works, Ataturk’s activities have also been pointed out. Rafik Zaka published his book, “Ata Turk” in 1998. According to the winner of international prize, R. Z. Khandan, Ataturk is not just a founder of a government, he is a genius figure deserves the nickname of father of whole of Turkey. The author can’t imagine Turkey without the name of Ataturk. The salvation of Turkey from foreign enemies in 1923 and giving new life to it as an independent country is the core subject dealt in the book. This is the reason behind the fact why Khandan has named his travel book “Ata Turk”.

Keywords: Ataturk, publicitu, idea, love, poetry, republic

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 05.08.2019
Filologiya üzrə fəlsəfə doktoru,dosent Kəminə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur.